**Nazir müavini: "Yaşıl dünya naminə həmrəylik ili"ndə 5 milyon ağacın əkilməsinə nail olacağıq – MÜSAHİBƏ**

*Ekologiya və təbii sərvətlər nazirinin müavini, ekoloji məsələlər üzrə işçi qrupun rəhbəri Vüqar Kərimov 23 may - Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin peşə bayramı münasibətilə AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.*

**-Vüqar müəllim, Ulu Öndər Heydər Əliyevin müvafiq Sərəncamı ilə 2001-ci il mayın 23-də Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılıb. Ötən 23 ildə nazirliyin əldə etdiyi uğurları və gələcək hədəfləri barədə danışmağınızı istərdik.**

-Qeyd etdiyiniz kimi, 2001-ci il mayın 23-də Ümummilli Lider Heydər Əliyevin müvafiq Sərəncamı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaranıb. Həmin tarix Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin peşə bayramı kimi qeyd olunur.

Ulu Öndərin ətraf mühit sahəsində fəaliyyətinə nəzər salsaq, məhz bu Sərəncamın özünün əlbəttə ki, xüsusi yeri var. Nazirlik ölkə üzrə fəaliyyət göstərən müxtəlif komitələrin, qurumların bazasında yaradılıb, fəaliyyəti müxtəlif sahələri özündə birləşdirir. Əsas fəaliyyət istiqamətlərinə nəzər yetirsək, bu sıraya ölkə əhalisinin və dövlət qurumlarının hidrometeoroloji məlumatlarla təmin olunmasını həyata keçirən Milli Hidrometeorologiya Xidmətinin fəaliyyətini mütləq qeyd etməliyik. Nazirliyin digər xidməti olan Meşələrin İnkişafı Xidməti ölkə ərazisində meşələrin mühafizəsi, inkişafını və bərpası işlərini həyata keçirir. Abşeron yarımadası və ətraf ərazilərdə yaşıllaşdırma işlərinin həyata keçirilməsi və yaşıllıqlara qulluğun göstərilməsi üçün nazirliyin tərkibində "Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu" Açıq Səhmdar Cəmiyyəti yaradılıb. Bu qurumun fəaliyyətinə əsasən yerli iqlim şəraitinə uyğunlaşa bilən ağac tinglərinin yetişdirilməsi və Abşeron yarımadasının yaşıllaşdırılması daxildir. Ən vacib fəaliyyət sahələrimizdən biri əlbəttə ki, xüsusi mühafizə olunan təbiət ərazilərimiz və onların idarəetməsini həyata keçirən nazirliyin Bioloji Müxtəlifliyin Qorunması Xidmətidir. Bu xidmət ölkə ərazisində həm landşaftların, həm də fauna və flora növlərinin - əsasən də nəsli kəsilmək təhlükəsi olan növlərin - qorunması ilə məşğul olur.

Digər istiqamətlər mineral xammalın idarə olunması və geoloji kəşfiyyat işlərinin aparılması ilə bağlı iki agentliyimizin fəaliyyətidir. Həm də ölkə üzrə ekoloji siyasəti həyata keçirən qurum olaraq ölkədə ətraf mühitə dəymiş təsirlərin qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər məhz Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən aparılır. Ötən dövrdə əldə etdiyimiz böyük uğurlar var. Meşələrin mühafizəsi sahəsində son dövrlərdə qazandığımız uğurlarımız barədə "artıq irəliyə doğru addım atmışıq" deyə bilərik. Abşeron yarımadasında 5 min hektardan çox yaşıllıqların salınması və onların həm qulluq işləri, həm də qorunub saxlanılması işlərini uğurlarımızın siyahısında sadalaya bilərik. Bu uğurlarımız ölkə rəhbərliyinin diqqətindən kənarda qalmır. Bir məqamı da xüsusi vurğulayım ki, 2022-ci ilin mayında - nazirliyin peşə bayramı ərəfəsində vacib qərar qəbul edildi: "Ətraf mühitin mühafizəsi sahəsində fərqlənməyə görə medalı" təsis olundu. Bu medal, təkcə nazirlik əməkdaşlarının deyil, həm də ölkədə ətraf mühitin mühafizəsi sahəsində fərqlənən digər şəxslərin də təltif edilməsi üçün nəzərdə tutulub. İndiyədək nazirliyin onlarla əməkdaşı ölkənin müxtəlif dövlət təltifləri ilə mükafatlandırılıb. Bütün bunlar bizim uğurlarımızın göstəricisidir.

**-2024-cü il ekoloji tədbirlərlə çox zəngin ildir. Artıq tədbirlər başlayıb. Bu il "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub. Həm də COP29-a hazırlıq prosesləri gedir. Ümumiyyətlə, nazirliyin üzərinə çox böyük vəzifələr düşür. Həmin vəzifələr nədən ibarətdir, bu il hansı tədbirlərin keçirilməsi gözlənilir?**

-Bəli, həm "Yaşıl dünya naminə həmrəylik ili", həm də COP29 tədbiri çox əhəmiyyətli və vacibdir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyasının - COP29-un Bakıda keçirilməsi ilə bağlı ötən ilin dekabrında qərar verildi. Əlbəttə ki, bu, ölkəmiz üçün çox əlamətdar hadisədir. Bu, bizə böyük etimaddır, həm də çox böyük məsuliyyətdir. Çünki ölkədə bu günədək keçirilən heç bir tədbirlə müqayisə olunmayacaq dərəcədə böyük tədbirdir və geniş auditoriyanı əhatə edir. Təsəvvür edin ki, Bakı ətraf mühit və iqlim dəyişmələri sahəsində dünya üzrə keçirilən bütün müzakirələrin baş platforması və mərkəzi olacaq. 2024-cü il noyabrın 11-dən 22-dək Bakı bu tədbirə ev sahibliyi edəcək. Əlbəttə ki, ölkə üzrə bu tədbirə hazırlıqlar artıq başlayıb.

Prezident İlham Əliyevin keçən il dekabrın 25-də imzaladığı müvafiq Sərəncamla Azərbaycanda 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan olundu. Bu il çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanlarının həyata keçirəcəkləri Tədbirlər Planı hazırlanaraq təsdiqləndi. Bu, çox zəngin

tədbirlər planıdır. Orada ətraf mühitin, bioloji müxtəlifliyin qorunması, yaşıllıqların artırılması, maarifləndirmə, yeni milli parkların və xüsusi mikrotəsərrüfatların yaradılması və s. ilə bağlı tədbirlər var və artıq onların icrası ilə bağlı işlərə başlanılıb.

Misal üçün deyə bilərəm ki, təsdiqlənmiş Tədbirlər Planında bu il ölkə üzrə 5 milyon ağacın əkilməsi nəzərdə tutulub. Yaz əkin mövsümündə artıq biz nəzərdə tutulan 5 milyon ağac və kol tinginin 2,5 milyonunun əkilməsinə nail olmuşuq. Bu, əlbəttə ki, yalnız Ekologiya və Təbii Sərvətlər Nazirliyinin həyata keçirdiyi layihələr deyil, həm mərkəzi, həm də yerli icra hakimiyyəti orqanlarının birgə işidir. Düşünürəm ki, ilin sonuna qədər həmin 5 milyon ağacın əkilməsi hədəfinə nail olacağıq.

Bundan başqa, əsasən xüsusi mühafizə olunan ərazilərlə bağlı nazirliyin genişmiqyaslı layihələri var.

**- İşğaldan azad olunan torpaqlarla bağlı nazirliyin üzərinə çox böyük vəzifələr düşür. Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərdə ekologiyaya dəyən zərərlərin qiymətləndirilməsi və bununla bağlı Azərbaycanın həqiqətlərinin dünyaya çatdırılması istiqamətində hansı işlər görülür?**

-Bəli, ərazilərimizin otuz ilə yaxın işğal altında qalması, əlbəttə ki, digər sahələrə olduğu kimi, ətraf mühit sahəsinə də təsirsiz ötüşmədi. Bu, Azərbaycanın ətraf mühit, ekologiya sahələrinə, əsasən su və təbii ehtiyatlarına, meşə örtüyünə, bioloji müxtəlifliyinə, bitki və heyvanat aləminə, yataqlara ziyan dəyməklə öz mənfi təsirini göstərdi.

Dediklərimi səsləndirəcəyim rəqəmlər də sübut edir. Azərbaycanın Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları ərazisində işğaldan öncəki dövrdə 260 min hektar meşə fondu torpaqları olub ki, bunun da 216 min hektarı meşə örtüklü ərazilər idi. Aparılan ilkin qiymətləndirmələrdə 54 min hektardan çox meşə ərazisinin işğal dövründə tamamilə məhv edildiyi aşkara çıxdı. Bu qiymətləndirmələr, əlbəttə ki, davam etdirilir. Meşələrimiz yandırılıb, məqsədli şəkildə ağaclar tikinti materialları kimi, mebel sənayesinin xammalı kimi istifadə olunmaq uçun qırılıb. Təbii ehtiyatlarımız yanacaq, odun və digər məqsədlərlə daşınıb. 54 min hektar deyərkən tamamilə məhv edilən meşədən söhbət gedir. Əlbəttə, meşələrimizə dəymiş ziyanlar daha böyükdür. Qiymətli meşə cinslərinin qırılaraq daşınması səbəbindən seyrəkləşən meşələrimizi də nəzərə alsaq dəymiş ziyanın miqyasının daha böyük olduğunu görərik. İşğaldan azad olunmuş ərazilərdə ümumilikdə altı xüsusi mühafizə olunan ərazimiz var. Onların ikisi dövlət təbiət qoruğu, dördü isə dövlət təbiət yasaqlığıdır: Zəngilan rayonu ərazisində yerləşən Bəsitçay Dövlət Təbiət Qoruğu və Laçın rayonu ərazisindəki Qaragöl Dövlət Təbiət Qoruğu; Daşaltı, Arazboyu, Laçın və Qubadlı Dövlət Təbiət yasaqlıqları. Həm bioloji müxtəlifliyimizə, həm təbii ehtiyatlarımıza 30 ilə yaxın müddətdə dəymiş ziyanların miqyasını və formasını Bəsitçay Dövlət Təbiət Qoruğu və Qaragöl Dövlət Təbiət qoruqları misalında izah etməyə çalışacağam.

Bəsitçay Dövlət Təbiət Qoruğu ümumilikdə 108 hektar ərazini əhatə edir. Qoruğun yaranmasına səbəb dünyada cəmi bir neçə təbii arealı olan Şərq çinarı növünün, - Xan çinarı da deyilir, - orada olan təbii arealının mühafizə olunması məqsədilə yaradılıb. Bu, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1974-cü ildə yaradılmış təbiət qoruğudur. Onun 87 hektarı 1989-cu ildə aparılmış meşə quruluşu işlərində meşə örtülü çinar meşəlikləri olub. Amma indi işğaldan sonrakı dövrdə aparılan ilkin qiymətləndirmədə həmin çinar meşəsinin 40 hektardan çox hissəsinin tamamilə məhv edildiyi məlum olub. Çinar ağacları məhv edilib, yerində kənd təsərrüfatı əkini aparılıb.

Digər nümunə isə Qaragöl Dövlət Təbiət Qoruğunda yaranan vəziyyətdir. Sözügedən qoruq yüksək dağ landşaftının, orada yaşayan Qızıl xallı farel balığı kimi nadir növlərin mühafizə olunması məqsədilə yaradılıb. Həmin gölün ixtiofaunası və orada yaşayan canlılar tamamilə məhv edilib. Eyni zamanda, suyundan təsərrüfat məqsədilə istifadə edilməsi səbəbindən quruyub. Nə gölün özünün əvvəlki ecazkar təbii görünüşü, nə də orada yaşayan canlılar qalıb. Bu sadaladığım nümunələr dövlət təbiət qoruqlarıdır. Bütün dünyada təbiət qoruğu statusu əldə etmiş ərazilərə xüsusi münasibət göstərilir. Ancaq işğal dövründə sözügedən Azərbaycan qoruqlarının birində meşənin 50 faizdən çox hissəsi, digərində isə göl və orada yaşayan su canlıları tamamilə məhv edilib.

Mina təhlükəsizliyi məsələləri həll olunduqca, biz bu ərazilərin ekologiyasına dəyən zərəri bərpa etməyə davam edəcəyik. Bəsitçay və Qaragöl dövlət təbiət qoruqlarının əvvəlki vəziyyətinə qaytarılması yaxın dövrdə mümkün olmasa da, proseslə bağlı təbii bərpaya dəstək proqramları davam edir. Eləcə də həmin ərazilərdə meşələrin bərpası, yeni yaşıllıqların salınması üzrə layihələr üzərində işləyirik.

**- Nazirliyin fəaliyyətində reintroduksiya layihələri də mühüm yer tutur. Qarşıdakı dövrlərdə bizi hansı fauna növlərinin təbii areallarının bərpası tədbirləri gözləyir? Xüsusilə də biomüxtəlifliyi məhv edilmiş ərazilərdə həyata keçirilməsi nəzərdə tutulan layihələr barəsində məlumat verməyinizi xahiş edirik.**

-Azərbaycanda xüsusi mühafizə olunan ərazilər - 10 milli park, 10 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı olmaqla, ölkənin 10,3 faiz ərazisini əhatə edir. Bu, 893 min hektar ərazi deməkdir. 2001-ci illə müqayisə etsək bu ərazilər kifayət qədər genişlənib.

Ulu Öndər Heydər Əliyevin 2003-cü ildə imzaladığı müvafiq sərəncamlarla yeni milli parkların yaradılması prosesi başlandı. Ağgöl Milli Parkı, Şirvan Milli Parkı, əvvəllər Ordubad Milli Parkı kimi yaradılan, indi isə Həsən Əliyev adına Zəngəzur Milli Parkı həmin siyahıdadır. Sonralar bu kimi milli parkların yaradılması prosesi davam etdirildi. Milli parkların sayı 10-a qədər, xüsusi mühafizə olunan yerlərin ərazisi isə iki dəfədən çox artırıldı.

Nazirliyin milli parkların yaradılması ilə bağlı yeni layihələri də var. Yeni milli parklardan biri İlisu Dövlət Təbiət Qoruğunun ərazisində və onun bazasında yaradılan İlisu Milli Parkıdır. Yeri gəlmişkən bu işlər "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində həyata keçiriləcək layihələr sırasındadır. Digər milli parkın isə Qanıx çayı vadisində və Axar-baxar dağ silsiləsinin ərazisində yaradılması planlaşdırılır. İlin sonuna qədər həmin milli parkların yaradılması işlərinin yekunlaşdırılmasını planlayırıq.

**- Vüqar müəllim, hansı növlər öz tarixi areallarına bərpa olunub?**

- Növlərin öz tarixi arealına bərpa olunması ilə bağlı çox geniş layihələr var. Ən böyük layihə ceyranlarla bağlıdır. Bilirsiniz ki, 1990-cı ildə ölkə ərazisində ceyranların sayı çox kəskin azalmışdı. Hətta göstərici bir neçə yüz başa qədər düşmüşdü. Ancaq dövlətin gördüyü tədbirlər və onun mühafizəsinə olan xüsusi diqqət nəticəsində hazırda ceyranların sayı 8 min başa qədər artıb. Ceyranların xüsusilə qorunduğu ərazi isə Şirvan Milli Parkıdır. 2010-cu ildən başlayaraq 370 baş ceyran öz təbii arealının bərpası məqsədilə ölkənin müxtəlif ərazilərinə və Gürcüstanın Vaşlovani Milli Parkına buraxılıb.

İşğaldan azad edilən Şərqi Zəngəzur, Qarabağ iqtisadi rayonunun ərazisi əsasən səhra, yarımsəhra landşafta malikdir və tarixən ceyranların təbii arealı olub. 2022-ci ildən Ekologiya və Təbii Sərvərlər Nazirliyi həmin yerlərdə ceyran arealının bərpası ilə bağlı layihəni həyata keçirir. Layihə çərçivəsində Cəbrayıl rayonu ərazisinə 33 baş ceyran buraxılıb.

Ölkəmizin digər ərazilərinə - Ağgöl Milli Parkı, Korçay Dövlət Təbiət Qoruğuna, Abşeron Milli Parkına və Qax Dövlət Təbiət Yasaqlığına ceyranları buraxmaqla reintroduksiyanı davam etdiririk.

Digər reintroduksiya isə Avropa zubrları ilə bağlıdır. 2019-cu ildən etibarən zubrların (bizon) ölkəmizin vəhşi təbiətinə reintroduksiya edilməsi istiqamətində IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Vəhşi Təbiətin Mühafizəsi Fondunun (WWF) Azərbaycan ofisi tərəfindən intensiv işlər aparılır. Layihə çərçivəsində ölkəyə 46 baş bizon gətirilib. İlkin olaraq 2019-cu ildə 12 baş, 2020-ci ildə 5 baş, 2021-ci ildə 9 baş və 2022-2023-cü illərdə isə hər il 10 baş olmaqla 46 baş zubr Azərbaycana gətirilib. Təqdirəlayiq haldır ki, onların təbii artımı çox sürətlə gedir. Uyğunlaşma prosesi olduqca normaldır və hazırda həmin zubrların ölkə ərazisindəki sayı 61 başa qədər artıb. Yəni dörd ilə yaxın müddətdə 15 baş zubrun artımı doğrudan da müsbət hal hesab oluna bilər.

Bundan başqa, nəcib maral növünün, Şərqi Zəngəzur və Qarabağdakı su hövzələrində yoxa çıxan balıq növlərinin, Dağıstan turu və Bezoar keçisinin təbii arealına bərpası ilə bağlı genişmiqyaslı layihələr həyata keçirilir və bu işlər davamlı olacaq.

**Aytac Haqverdiyeva**

**AZƏRTAC**
**2024, 23 may**